AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 6/2

Bakı şəhəri 28 yanvar 2021-ci il

AMEA-nın elmi müəssisə və təşkilatlarında işləyən işçilərin attestasiyasının keçirilməsi barədə

AMEA-nın elmi müəssisə və təşkilatlarında işləyən işçilərin peşəkarlıq səviyyəsinin yoxlanılması, ixtisasının tutduğu vəzifəyə uyğunluğunun, həmçinin işçilərin işinin səmərəliliyinin müəyyən edilməsi və əmək fəaliyyətinin mövcud qanunvericiliyin tələblərinə uyğun təmin edilməsi məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR**:

1. AMEA-nın elmi müəssisə və təşkilatlarının rəhbərlərinə tapşırılsın:
   1.1. rəhbərlik etdikləri elmi müəssisə və təşkilatlarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 may 2001-ci il tarixli 97 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi Qaydaları”nın və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 65-67-ci maddələrinin tələblərinə əsasən attestasiya keçirilməsi məqsədilə attestasiya komissiyasının yaradılması təmin edilsin.
   1.2. rəhbərlik etdikləri elmi müəssisə və təşkilatlarda xüsusi karantin rejiminin qaydalarına əməl etməklə 20 (iyirmi) gün müddətində işçilərin attestasiyası keçirilsin və nəticəsi barədə AMEA prezidentinə yazılı məlumat verilsin.
2. AMEA Rəyasət Heyəti aparatının Hüquq və kadrlar idarəsinə tapşırılsın ki, AMEA-nın elmi müəssisə və təşkilatlarında attestasiyanın keçirilməsinə metodiki köməkliyin göstərilməsi məqsədilə seminar məşğələlərin keçirilməsi təmin edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın birinci vitse-prezidenti akademik Dilqəm Tağıyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Ramiz Mehdiyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ APARAT

AMEA-nın akademik-katibi akademik Adil Qəribov